**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 8 yanvar 2015-ci il tarixli 143 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Əliyev Zaur Mirzəli oğlu və Əhədov Xalid İlham oğlu 2015-ci il yanvarın 8-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, adıçəkilən seçki dairəsi dairə seçki komissiyasının 31 dekabr 2014-cü il tarixli 25/65 saylı qərarı ilə razılaşmadıqlarını bildirərək həmin qərarın ləğv edilməsini x ahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Araşdırma ilə müəyyən olunmuşdur ki, 76 saylı Lənkəran-Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Xalid Əhədov və digərləri səsvermə günü 1, 2 və 3 saylı seçki məntəqələrində ehtimal olunan qanun pozuntuları barədə 29 dekabr 2014-cü ildə Mərkəzi Seçki Komissiyasına müraciət etmiş, müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduğundan araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilmişdir. Dairə seçki komissiyası Seçki Məcəlləsinin və müvafiq Təlimatın tələblərinə uyğun olaraq müraciəti araşdırmış və araşdırmanın nəticəsi olaraq 2014-cü il dekabrın 31-də şikayətin əsassız hesab edilməsi barədə 25/65 saylı qərar qəbul etmişdir. Qərarın surəti maraqlı subyektlərə poçt vasitəsilə göndərilmişdir.

Araşdırma prosesində 76 saylı Lənkəran-Astara seçki dairəsinin dairə seçki komissiyasından təqdim olunmuş arayışdan müəyyən edilir ki, 23 dekabr 2014-cü ildə keçirilmiş bələdiyyə seçkilərində Mamusta bələdiyyəsinə seçkilər üzrə 1, 2 və 3 saylı seçki məntəqələrində səsvermə günü və səslərin hesablanması ilə bağlı həmin məntəqələrdə müşahidə aparmış şəxslərdən, qeydə alınmış namizədlərdən və digər seçki subyektlərindən qanun pozuntusu olmasına dair məntəqə və dairə seçki komissiyasına yazılı müraciət daxil olmamışdır.

Araşdırma ilə əlaqədar 1, 2 və 3 saylı seçki məntəqələrinin müxtəlif siyasi partiyaları təmsil edən komissiya üzvlərindən və seçkiləri müşahidə etmiş çoxsaylı müşahidəçilərdən, həmçinin səsvermənin nəticələrinə görə kifayət qədər səs toplamamış qeydə alınmış namizədlərdən alınmış izahatlardan müəyyən edilir ki, səsvermə günü və səslərin hesablanması prosesində həmin məntəqələr üzrə seçkilərin nəticələrinə təsir edə biləcək pozuntular baş verməmişdir. Bundan əlavə, araşdırma zamanı müəyyən olunmuşdur ki, həmin seçki dairəsinin 1 saylı seçki məntəqəsində veb-kamera quraşdırılmış, bütün səsvermə prosesi canlı olaraq internet vasitəsilə izlənilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin

verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Əliyev Zaur Mirzəli oğlu və Əhədov Xalid İlham oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş olmuş 8 yanvar 2015-ci il tarixli 143 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 31 dekabr 2014-cü il tarixli 25/65 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov